*21 noyabr Yeni Azərbaycan Partiyasının təsis olunma günüdür*

# 26 il fəal həyatda

***Otən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən hadisələr ölkəni sözün həqiqi mənasında mənəvi və siyasi böhran səviyyəsinə gətirib çıxarmışdı. Hakimiyyətdəkilər tez-tez dəyişilsə də böhran daha da dərinləşirdi. Dövlətin ali hakimiyyət orqanları iflic vəziyyətdə idi. Əhalinin maddi durumu gündən-günə ağırlaşırdı ki, bu da minlərlə ziyalının, ixtisaslı kadrların ölkəni tərk etməsinə gətirib çıxarırdı.***

***1992-ci ilin may ayında silah gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkədə sabitlik yaratmaq iqtidarında deyildi. Hakimiyyətdəki bəzi qüvvələrə bağlı qanunsuz silahlı dəstələrin özbaşınalıqları əhali arasında böyük narazılıq və narahatlıq yaradırdı.***

Belə bir vaxtda -1992-ci ilin oktyabr ayında Azərbaycanın gələcəyinə biganə qala bilməyən, cəmiyyətdə tanınmış və hörmət qazanmış bir qrup alim, incəsənət xadimi ulu öndər Heydər Əliyevə müraciət etdi. "Səs" qəzetinin 16 oktyabr 1992-ci il tarixli sayında dərc olunmuş həmin müraciətdə ölkədəki vəziyyət qısaca təhlil olunur, ümumilli lider Heydər Əliyevə xitabən yazılırdı:

"Hörmətli Heydər Əliyev! Siz respublikada bu missiyanı boynuna götürə biləcək yeganə şəxsiyyətsiniz. Uzun illik idarəçilik təcrübənizə əsaslanaraq, Siz Azərbaycanda qısa zaman ərzində əhalinin, ictimaiyyətin böyük hissəsini birləşdirə biləcək güclü, qüvvətli siyasi partiya yaratmağa qadirsiniz".

Daim xalqının, Vətəninin gələcək taleyi barədə düşünən ulu öndər Heydər Əliyevin ziyalılara cavabı gecikmədi. 24 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində Heydər Əliyevin tarixə "91-lər qrupu" kimi daxil olmuş ziyalılara cavabı dərc olundu. Ulu öndər cavab məktubunda Azərbaycandakı vəziyyəti böyük siyasətçi müdrikliyi ilə təhlil etdikdən sonra ölkəni böhrandan çıxarmaq üçün onların təklifinə razı olduğunu bəyan edirdi.

Beləliklə 1992-ci il noyabr ayının 21-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan yeni siyasi təşkilatın-Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi.

AXC-Müsavat hakimiyyəti xalqın içərsində böyük nüfuz sahibi olan Heydər Əliyevin rəhbərliyi ilə siyasi təşkilatın yaranmasına böyük qısqanclıqla yanaşaraq təsis konfransının Bakıda keçirilməsinə bütün vasitələrlə əngəl törətdiyindən konfrans blokada şəraitində olan Naxçıvanda keçirildi. Hakimiyyətin bütün təqib və təzyiqlərinə baxmayaraq təsis konfransında Azərbaycanın bütün bölgələrindən 550 nümayəndə iştirak edirdi. Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramını ulu öndər Heydər Əliyev şəxsən özü yazmışdı. Təsis konfransı partiyanın Nizamnamə və Proqramını təsdiq etməklə yanaşı siyasi şuranı, idarə heyətini seçdi. Ulu öndər Heydər Əliyev yekdil səslə Yeni Azərbaycan Partiyasının sədri seçildi və ömrünün sonunadək bu çətin missiyanı şərəflə daşıdı.

Yeni Azərbaycan Partiyasının yaranması və ən əsası ona Heydər Əliyevin rəhbərlik etməsi ölkə ictimaiyyətində böyük ruh yüksəkliyi yaratdı, əhalinin ölkəmizin gələcəyinə olan inamını bərpa etdi. Azərbaycanın bütün bölgələrində olduğu kimi Qəbələ rayonunda da Yeni Azərbaycan Partiyasının təşəbbüs qrupları yarandı. 1992-ci ilin dekabr ayında formalaşmağa başlayan təşəbbüs qruplarına qısa müddətə rayonun ictimai siyasi həyatında fəal iştirak edən ziyalılar, əmək adamları, müxtəlif sahələr üzrə mütəxəssislər toplandı. Yerli hakimiyyətin təzyiqlərinə baxmayaraq təşəbbüs qruplarının sıraları durmadan sıxlaşırdı.

1993-cü ilin sentyabr ayında Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının təsis konfransı keçirildi. Həmin dövrdən keçən 25 il ərzində YAP Qəbələ Rayon Təşkilatı rayonun ictimai-siyasi həyatının ən fəal iştirakçısı funksiyasını şərəflə yerinə yetirir. 25 il ərzində keçirilən Prezident, parlament, bələdiyyə seçkilərində, həmçinin ümumxalq səsvermələrində(referendumlarda) Qəbələ yeni azərbaycançıları yüksək nəticələrə nail olaraq Heydər Əliyev yoluna sədaqətlərini qürurla nümayiş etdirmişlər.

**Abil AĞASƏFOV,**
**Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri.**

***Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu mərkəz olub. Tarix boyu bu qədim torpaqda müxtəlif dinlərin, mədəniyyətlərin, etnik qrupların nümayəndələri sülh, qardaşlıq və qarşılıqlı hörmət şəraitində yaşayıblar. Minilliklərlə formalaşan bu ab-hava Azərbaycan cəmiyyətində indi də qorunub saxlanılır. Azərbaycan bu gün çoxmillətli, çoxkonfessiyalı ölkədir, tolerantlıq və multikulturalizm ideyaları cəmiyyətdə çox güclüdür.***

# Qafqaz Albaniyasının mədəni-tarixi irsinə həsr olunmuş elmi-praktik konfrans keçirilib

Noyabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Qəbələ Rayon İcra Hakimiyyətinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM), və Alban-Udi Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə Nic qəsəbəsində "Qafqaz Albaniyası Azərbaycanın mədəni-tarixi irsi kimi" mövzusunda elmi-praktik konfrans keçirilib.

Qəsəbədəki Azərbaycan Udi Ocağında keçirilən konfransda təşkilatçı qurumların əməkdaşları, tarixçi alimlər, ziyalılar iştirak ediblər.

İştirakçılar əvvəlcə udi mədəniyyətini əks etdirən etnoqrafik muzeyə baxıblar.

Konfransı açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova ölkəmizin dünyada multikulturalizmin məskəni kimi tanındığını, multikulturalizmin Azərbaycan modelinin bu gün bütün dünyada geniş təbliğ olunduğunu bildirib. Azərbaycanda tarix boyu müxtəlif dinlərin, mədəniyyətlərin, etnik qrupların nümayəndələrinin sülh, qardaşlıq və qarşılıqlı hörmət şəraitində yaşadıqlarını qeyd edən Ətayə Osmanova bu ənənənin indi də qorunub saxlanıldığını diqqətə çatdırıb..

BBMM-nin icraçı direktor əvəzi Rəvan Həsənov çıxışında bildirib ki, Qafqaz Albaniyası Azərbaycanın tarixi-mədəni irsinin ayrılmaz tərkib hissəsidir və bu tarixə ölkənin hər bir vətəndaşı sahib çıxmalıdır. Natiq vurğulayıb ki, əgər biz Qafqaz Albaniyasına, onun tarixinə laqeyd yanaşsaq, o zaman bədnam qonşularımız və digərləri tariximizə sahib çıxmağa can atacaq. Bunu yaxın tariximizdə də yaşamışıq. Torpaqlarımıza, tariximizə, mədəniyyətimizə iddialar heç vaxt bitməyib.

Qafqaz Albaniyası ilə bağlı işlərin intensivləşdirilməsinin vacibliyinə toxunan Rəvan Həsənov qeyd edib ki, BBMM bu işdə aparıcı mövqeyini ortaya qoymağa həmişə hazırdır. Mərkəz yalnız ölkə daxilində deyil, ölkə xaricində də tarixçi alimlərin iştirakı ilə Qafqaz Albaniyasını, xüsusilə onun ərazisində yaşamış tayfalardan biri olan udilərin tarixini, dini inanclarını təbliğ etmək üçün mühüm tədbirlər həyata keçirir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin aparıcı məsləhətçisi Anar Əlizadə tədbirin olduqca aktual, əhəmiyyətli və ağrılı bir mövzuya həsr olunduğunu bildirib. Qeyd olunub ki, Azərbaycana qarşı etnik təmizləmə, təcavüz siyasəti həyata keçirən Ermənistan öz işğalçı siyasətinə tarixi don geyindirməyə çalışır, erməni şovinistləri tarixi saxtakarlığa əl atırlar. Onlar tərəfindən işğal olunmuş ərazilərimizdə qədim alban məbədlərinin üzərindəki əski kitabələr məhv edilir və başqa yazılarla əvəz olunur. Məqsədli qaydada bu məbədlərin özünəməxsus memarlıq quruluşu dəyişdirilərək erməniləşdirilir və qriqoryanlaşdırılır.

Anar Əlizadə deyib: "Qafqaz Albaniyasının irsinə sahib çıxmaq bizim borcumuzdur. Rus qafqazşünas alimlərinin də qeyd etdikləri kimi, Qafqaz Albaniyasının tarixi və taleyi ilə azərbaycanlılar hamıdan çox maraqlanmalı, məşğul olmalıdırlar. Onlar bu sahədə dünya elmi qarşısında məsuliyyət daşıyırlar. Sevindirici haldır ki, alimlərimiz son zamanlar ermənilərin yalanlarını ifşa edən xeyli fundamental əsərlər yazıblar. Hər il Qafqaz Albaniyası irsinin Azərbaycan xalqına məxsusluğunu sübuta yetirən, onu dünya ictimaiyyətinə təqdim və təbliğ edən xeyli tədbir keçirilir. Bununla yanaşı, Qafqaz Albaniyası irsinin qorunması ilə bağlı, həm də praktiki addımlar atılmalıdır. Azərbaycan dövləti buna çox böyük əhəmiyyət verir. Dövlətimizin başçısı da bu məsələyə çox həssas yanaşır. Bu istiqamətdə artıq həm hüquqi, həm də dini müstəvidə xeyli iş görülüb. Alban kilsələri bərpa olunub, 2 alban-udi icması dövlət qeydiyyatına alınıb. Bu icmalara hər il əhəmiyyətli dərəcədə maliyyə yardımı ayrılır. Bütün bunlarla məqsəd tarixi ədalətsizliyi ortadan qaldırmaq və alban kilsələrini öz həqiqi varislərinə qaytarmaqdır".

DQİDK-nin dinşünaslıq ekspertiza şöbəsinin müdiri Nahid Məmmədov tədbirin bir neçə gündən sonra qeyd olunacaq Beynəlxalq Tolerantlıq Günü ərəfəsində keçirilməsinin xoş bir təsadüf olduğunu vurğulayıb. Bildirilib ki, azərbaycanlıların, udilərin, ləzgilərin və digər xalqların nümayəndələrinin yaşadığı Nic qəsəbəsi istər ölkə daxilində, istərsə də beynəlxalq tədbirlərdə hər zaman Azərbaycan tolerantlığının, multikulturalizminin beşiyi, canlı nümunəsi kimi təqdim olunur.





Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili tədbirin əhəmiyyətini yüksək qiymətləndirərək, təşkilatçılara icma üzvləri adından minnətdarlığını bildirib.

Konfransda AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Fəridə Məmmədovanın "Azərbaycanın mədəni-tarixi irsi olaraq Qafqaz Albaniyası: regional, siyasi (konfessional) və mədəni aspektlər", tarix elmləri üzrə fəlsəfə doktoru Ülviyyə Hacıyevanın "VIII-XIX əsr Alban etno-mədəni irsi yerli mənbələrdə", memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlının "Qafqaz Albaniyasında Arran memarlıq məktəbinin rolu", tarix elmləri doktoru Məhəbbət Paşayevanın "Azərbaycada alban tayfalarının etnik ənənələri", tarix elmləri doktoru Anar İsgəndərlinin "Qafqaz Albaniyası Azərbaycan tarixşünaslığında", tarix üzrə fəlsəfə doktoru Natiq Alışovun "Tülü kilsəsində aparılan arxeoloji tədqiqatların nəticələri" mövzularında məruzələri dinlənilib.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**